1_Layout 1 28.08.2020 11:44 Page 1

Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.

İlham ƏLİYEV

ƏSGƏR

№ 16 (582)

31 avqust 2020-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

QƏTİYYƏTLİ SƏRKƏRDƏ, GÜCLÜ ORDU, PRİNSİPİAL MÖVQE

İlham Əliyevin yaratdığı Cənubi Qafqazın ən güclü ordusu Ermənistanın cəbhə xəttindəki istənilən təxribatına layiqli cavab verəcək

"Azərbaycan" qəzetinin müxbiri Rəşad Baxşəliyevin müəllifi olduğu "Qətiyyətli sərkərdə, güclü ordu, prinsipial mövqe" başlıqlı məqaləsinin ictimai aktuallığını nəzərə alaraq ixtisarla oxucularımıza təqdim edirik.

Zaman-zaman Azərbaycana qarşı müxtəlif təxribatlar törətməklə həm danışıqlar prosesini uzatmağı, həm də səfalət içərisində yaşayan ölkə ictimaiyyətinin ciddi narazılıqlarının qarşısını almağı terrorçu siyasətinin "ana xətti" kimi müəyyənləşdirən Ermənistan hakimiyyəti son günlərdə yeni avantüralara başlayıb.

Təbii ki, yenə də gərginliyin yaradılmasında məqsəd daxili problemlərdən diqqəti yayındırmaqdır. Çünki bir tərəfdən ölkədə həm siyasi, həm də sosial-iqtisadi gərginlik getdikcə böyüyür. Eyni zamanda N.Paşinyanın koronavirus pandemiyası ilə mübarizədə hər hansısa bir proqramının mövcud olmaması yoluxma və ölənlərin sayının getdikcə artması ilə nəticələnir. Ermənistan həm virusa yoluxanların, həm də ölənlərin sayına görə Cənubi Qafqazda liderdir.

Bir tərəfdən Paşinyanın BBC televiziyasının "HARDTalk" proqramında özünü növbəti dəfə rüsvay etməsi, digər tərəfdən daxili dramatik vəziyyət, pandemiyanın ağır fəsadları ölkədə ciddi etirazlara səbəb olub. Faşist ideologiyasının təbliğatçıları isə bu rəzillikdən qurtuluşu yenə də təxribatlar törədib əhalinin fikrini yayındırmaqda görürlər.

Uşaq qatillərinin standart praktikası...

Bu dəfə vəziyyəti gərginləşdirməyə xidmət edən təxribatlarla bağlı ilk tapşırığı Dağlıq Qarabağdakı qondarma rejimin başçısı Araik Arutyunyan verib. Bu şəxsin Azərbaycanın ikinci böyük şəhəri olan Gəncənin vurula biləcəyi ilə bağlı sərsəm fikirləri əlbəttə ki, Azərbaycan ictimaiyyətində narahatlıq yaratmaq məqsədini güdür. Guya xalq bundan ciddi narahat olacaq və ölkədə gərginlik yaranacaq.

Lakin bu terrorçu qruplaşmanın üzvləri yaxşı bilirlər ki, Azərbaycan xalqı təcavüzkarın hansı hərbi "gücə" malik olduğundan yaxşı xəbərdardır. Əgər Ermənistanda Gəncəni vurmaq cəsarəti var idisə, Aprel və Tovuz döyüşlərində bunu nədən reallaşdırmadı?!

Onların belə bir hərbi imkanları olsaydı, erməni vandalizmi özünü bir daha göstərərdi. Çünki uşaq qatillərinin standart praktikası yalnız mülki obyektləri və yaşayış məntəqələrini hədəfə almaqdır. 2016-cı il aprel hadisələri, 2 yaşlı Zəhranın nənəsi ilə birgə həlak olması, Tovuz istiqamətində baş vermiş döyüş toqquşmaları zamanı da Ermənistan silahlı qüvvələri tərəfindən mülki obyektlərin hədəfə alınması və dinc sakinlərin qəsdən öldürülməsi bunu bir daha təsdiqləyir.

Təəssüfləndirici haldır ki, terrorçu hakimiyyətin bu vəhşilikləri dünya birliyinin gözü qarşısında baş verir. Yenə də təcavüzkara qarşı heç bir sanksiya tətbiq edilmir. Münaqişənin nizamasalınma prosesinə cəlb edilən ATƏT-in Minsk Qrupunun həmsədrləri də hər zaman eyni ampluadadırlar. Elə ona görə işğalçı bu cəzasızlıq mühitindən lazımınca yararlanaraq hərbi təxribatlarından əl çəkmir.

Görəsən qondarma rejimin rəhbərinin son "hədəsi" ilə bağlı həmsədrlərin indiyədək susqun qalmasının səbəbi nədir?! Əgər Azərbaycan tərəfindən hər hansı rəsmi şəxs Ermənistan ictimaiyyətini narahat edən fikir səsləndirsəydi, yəqin ki, onlar indiyədək bir neçə etiraz bəyanatı yaymışdılar.

Ona görə də Azərbaycan xalqının haqlı narazılığı başa düşüləndir. Ölkə ictimaiyyəti, həmçinin, siyasi ekspertlər də hesab edirlər ki, həmsədrlərin regiona turist xarakterli səfərləri yalnız Ermənistanın maraqlarına xidmət edir.

İşğalçı sülh istəmir, təkbətək savaşdan isə qorxur...

Bu təxribatlar bir daha təsdiq edir ki, Ermənistan məsələnin sülh yolu ilə həllində maraqlı deyil. Təbii ki, sülh istəməyən ölkənin, eyni zamanda, Azərbaycanla təkbətək savaş aparmağa nə hərbi gücü, nə də cəsarəti var. Əgər olsaydı, Prezident İlham Əliyevin bu ölkənin rəhbərliyinə ünvanladığı "Gəl bizimlə təkbətək vuruş, təkbətək, baxaq görək bunun axırı nə olacaq" mesajından sonra hər hansısa bir qərar verərdi.

İşğalçının bu mesaj qarşısında acizliyi bir daha təsdiq etdi ki, bu ölkə Azərbaycanla təkbətək savaşdan qorxur. Çünki ermənilər yaxşı bilirlər ki, ən müasir hərbi texnika ilə təchiz edilmiş Azərbaycan Ordusu qarşısında bir gün belə duruş gətirə bilməzlər, Aprel, Günnüt, Tovuz döyüşlərində olduğu kimi.

Son hərbi əməliyyatların da ən mühüm reallığı növbəti dəfə Azərbaycanın hərbi üstünlüyünün təsdiqidir. Təxribatın qarşısının alınması, tərəflərin həyata keçirdiyi əməliyyatların nəticəsi və keyfiyyəti Azərbaycanın müasir döyüş imkanları baxımından Ermənistandan dəfələrlə güclü olduğunu göstərir. Azərbaycanın dəqiq, yüksək və qarşısıalınmaz zərbə gücünə malik müasir silahlara sahib olması və döyüşlərdə bunun az bir hissəsindən istifadə edərək düşmənə ağır zərbələr vurması Ermənistan tərəfində daim dərin təlaş və narahatlıq yaradır.

Bunun ardınca isə Azərbaycanla qardaş Türkiyə Respublikasının ordularının birgə təlimləri həm Ermənistana, həm də onun havadarlarına növbəti mesaj oldu. İki ölkənin ordularının şəxsi heyəti, zirehli texnikası, artilleriya qurğuları və minaatanları, həmçinin, hərbi aviasiya və hava hücumundan müdafiə vasitələrinin cəlb edildiyi hərbi təlimlər Ermənistanın siyasi-hərbi dairələrində ciddi narahatlıqla qarşılandı. Ermənistanın hərbi-siyasi dairələrindən səslənən fikirlər də göstərdi ki, Azərbaycan-Türkiyə birgə təlimləri düşmən ölkəni ciddi şəkildə təşvişə salıb.

Dünyanın 50 ən güclü ordusu sırasında

Əlbəttə ki, Türkiyə kimi böyük dövlətin ordusu ilə birgə hərbi təlimlərin keçirilməsi Azərbaycan Ordusunun ən müasir döyüş imkanlarını mənimsəməsində böyük rol oynayır.

Eyni zamanda, Silahlı Qüvvələrimizin tez-tez həyata keçirdiyi hərbi təlimlər düşmənin dincliyini pozan əsas amillərdən biridir. Nəticələr göstərir ki, ordumuzun bütün bölmələri qarşısında dayanan vəzifələri layiqincə icra etməyə qadirdir. Hazırda Cənubi Qafqazın ən qüdrətli hərbi gücünə malik Azərbaycan Silahlı Qüvvələri dünyanın 50 ən güclü ordusu sırasında yer alır.

Bu gün 102 yaşlı Azərbaycan Ordusu son 17 il ərzində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında daha da qüdrətlənib. Dövlət başçısı təhlükəsizlik siyasətini həyata keçirən və bu istiqamətdə praktik fəaliyyət göstərən orqan və qurumlar içərisində, ilk növbədə, ölkəmizin hərbi təhlükəsizliyinin qarantı olan ordu quruculuğu və Silahlı Qüvvələrin yüksək döyüş hazırlığı səviyyəsinə gətirilməsi istiqamətində çox gərgin, səmərəli və məqsədyönlü iş aparıb və yenə də aparmaqdadır.

Çünki Ermənistanın Azərbaycan torpaqlarını işğal altında saxladığı bir vaxtda qarşıda dayanan əsas vəzifələrdən biri ordunun gücləndirilməsi, döyüş qabiliyyətinin daim artırılması, modernləşməsi, ən son hərbi texnologiyalara yiyələnməsidir. Bundan irəli gələrək Azərbaycanın maliyyə imkanlarının artması nəticəsində ötən illərdə ordumuzun döyüş qabiliyyətinin yüksəldilməsi üçün bu sahədə qabaqcıl dövlətlərlə uğurlu əməkdaşlıq həyata keçirilib. İstər quru qoşunlarının, istər hərbi hava qüvvələrinin, istərsə də hava hücumundan müdafiə sistemlərinin döyüş imkanları ən müasir tələblər səviyyəsinə çatdırılıb.

Hazırda Cənubi Qafqazın ən qüdrətli ordusuna malik Azərbaycanın Silahlı Qüvvələri döyüş hazırlığına görə MDB məkanında ön sıralarda gedir. Azərbaycan vətəndaşları Silahlı Qüvvələrimizdə baş verən keyfiyyət və kəmiyyət dəyişikliklərini ordumuzun keçirdiyi təntənəli hərbi paradlarda, təlimlərdə də görüblər. Qürur doğuran hal odur ki, bu gün dünyanın hərbi baxımdan inkişaf etmiş dövlətlərinin malik olduqları strateji silahlar Azərbaycanda var.

Bu gün Azərbaycanın hərbi sənaye kompleksi də formalaşıb. Azərbaycan Cənubi Qafqazda öz ordusunu daxili imkanları hesabına hərbi texnika və silah-sursatla təchiz etmək gücünə malik olan yeganə ölkədir. Ölkəmizdə son illərdə formalaşan və dinamik templə inkişaf edən hərbi sənaye hesabına müxtəlif növ hərbi texnika, zirehli maşınlar, pilotsuz uçuş aparatları, atıcı silahlar istehsal olunur. Azərbaycan öz zavodlarında istehsal etdiyi hərbi təyinatlı məhsullarla ordumuzu əhəmiyyətli dərəcədə təchiz edir.

Bütün bunlar cənab İlham Əliyevin Ali Baş Komandan kimi əzmkar fəaliyyətinin daha bir əməli nəticəsidir.

Əminliklə deyə bilərik ki, bu gün istər hərbi müstəvidə, istərsə də diplomatik sferada Azərbaycan böyük üstünlüyə malikdir. Ermənistan danışıqlar prosesini uzatmaq üçün nə qədər təxribata əl atacaqsa, hər zamankı kimi layiqli cavabını alacaq. Əlbəttə ki, düşmənin bu təxribatlarla status-kvonu saxlamaq istəyi də çox çəkməyəcək. Danışıqlar yenə də nəticəsiz qalacaqsa, Azərbaycan Ordusu öz sözünü deyəcək.

Azərbaycan Respublikası vətəndaşlarının 2020-ci il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini şəxsi heyətlə komplektləşdirmək məqsədilə **qərara alıram:**

1. 2002-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1985–2001-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2020-ci il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.

2. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2020-ci il oktyabrın 1-dən 30-dək ehtiyata buraxılsınlar.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 26 avqust 2020-ci il.

Daxili İşlər nazirinin müavini – Daxili Qoşunların komandanı 25033 və 16073 saylı hərbi hissələrin yaranma günü münasibətilə şəxsi heyəti təbrik edib

Avqustun 27-28-də Daxili Qoşunların 25033 və 16073 saylı hərbi hissələrinin yaradılmasının iyirmi səkkizinci ildönümü tamam olub. Daxili Qoşunların formalaşdırıldığı və respublikamızın ərazi bütövlüyü uğrunda döyüşlərdə iştirak etdiyi çətin bir dövrdə fəaliyyətə başlayan, döyüş sınağından keçən, yerləşdikləri bölgədə layiqli xidməti ilə nüfuz qazanan bu hərbi hissələr ötən müddətdə yeni dislokasiya yerinə köçürülüb, onların təşkilati-ştat strukturu təkmilləşdirilib, maddi-texniki bazası möhkəmləndirilib və şəxsi heyətin sosial-məişət şəraiti müasir tələblər səviyyəsinə çatdırılıb. Hərbi hissələrin şəxsi heyətinin dövlətçiliyimiz naminə mübariz xidməti təqdirəlayiqdir.

Daxili İşlər nazirinin müavini-Daxili Qoşunların komandanı general-leytenant Şahin Məmmədovun hərbi hissələrin yaranma günü münasibətilə şəxsi heyətə təbrikində yarandıqları gündən Vətənə sədaqət və fədakarlıq nümunəsi göstərən hərbi hissələrin doğma torpaqlarımızın toxunulmazlığı uğrunda gedən döyüşlərdə, habelə ictimai asayişin qorunması üzrə tapşırıqların yerinə yetirilməsində zəngin döyüş və xidmət təcrübəsi topladığı, təqdirəlayiq inkişaf yolu keçdiyi vurğulanıb.

Qeyd olunub ki, Ümummilli Lider Heydər Əliyevin və onun layiqli davamçısı olan Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Daxili Qoşunlara göstərdiyi diqqət və qayğı nəticəsində hərbi hissələrdə önəmli işlər görülüb.

Bugünədək hərbi qulluqçuların peşə hazırlığının artırılması, hərbi hissələrdə maddi-tədris bazasının inkişafı yolunda da gərgin əmək sərf edilib.

Daxili Qoşunların komandanı şəxsi heyətin Ümummilli Lider Heydər Əliyevin ideyalarına sadiq qalaraq, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Daxili Qoşunlara göstərdiyi etimadı hər zaman doğruldacağına, qoşunların qəhrəmanlıq ənənələrini davam etdirərək bundan sonra da ləyaqətli xidmət nümunəsi göstərəcəyinə inandığını bildirərək, hərbi qulluqçulara ailə səadəti, cansağlığı, mətinlik və xidmətdə uğurlar arzulayıb.

Mətbuat xidməti

2 - 2_Layout 1 28.08.2020 11:54 Page 1

DAXİLİ QOŞUNLARIN TƏLİM MƏRKƏZİNDƏ METODİKİ-TƏLİM TOPLANIŞI KEÇİRİLİB

Avqustun 25-də Daxili Qoşunların Təlim mərkəzində Ali Hərbi Məktəbin və hərbi hissələrin qərargah rəislərinin döyüş təlimi üzrə müavinləri və xidmət üzrə köməkçiləri ilə metodiki-təlim toplanışı keçirilib. Metodiki-təlim toplanışına, ümumilikdə, 27 nəfər hərbi qulluqçu cəlb olunub.

Tədbirin təşkili ilə əlaqədar olaraq toplanışın keçirilməsinə dair tədbirlər planı, məşğələ və qiymətləndirmə cədvəlləri hazırlanıb. Bu barədə məlumat verən Daxili Qoşunların Baş İdarəsinin Qərargahında Əməliyyat və döyüş hazırlığı İdarəsinin rəisi - Qərargah rəisinin müavini polkovnik Zəfər Əliyev qeyd edib ki, təsdiq edilmiş məşğələ cədvəlinə uyğun olaraq, avqustun 21-də məşğələ rəhbərləri ilə metodiki təlimat məşğələsi keçirilib, istiqamətlər müəyyənləşdirilib və müvafiq tapşırıqlar verilib.

Toplanışın keçirilməsi zamanı əsas diqqət cəlb olunan hərbi qulluqçuların metodiki biliklərinin artırılmasına, onlara işgüzar keyfiyyətlərin və idarəçilik qabiliyyətlərinin aşılanmasına yönəldilib. Bundan başqa, şəxsi heyətlə döyüş təlimində və sutkalıq xidmətin təşkilində yeni üsulların tətbiqi üzrə vahid baxışın formalaşdırılması, ötən dövr ərzində bu istiqamətlərdə xidməti-döyüş fəaliyyətinin yekunları müzakirə olunub, qarşıda duran vəzifələr dəqiqləşdirilib.

Bundan əlavə, qərargah rəislərinin döyüş təlimi üzrə müavinlərinin və xidmət üzrə köməkçilərinin Silahlı Qüvvələrin Ümumqoşun Nizamnamələri və rəhbər sənədlərin tələbləri üzrə bilikləri, avtomat və tapançadan atış çalışmalarını yerinə yetirməklə atıcılıq qabiliyyətləri və fiziki hazırlıq səviyyələri müəyyən edilib, zirehli transpartyordan 1-ci təlim atış çalışmasının yerinə yetirilməsi üzrə göstərici məşğələ keçirilib.

Sonda polkovnik Zəfər Əliyev tərəfindən metodiki-təlim toplanışına yekun vurularaq, iştirakçılara döyüş hazırlığının yüksək səviyyədə saxlanılması, möhkəmləndirilməsi, fəaliyyət istiqamətləri üzrə tapşırıqlar verilib.

Mətbuat xidməti

XİDMƏTİ İT TƏLİMÇİLƏRİNİN PEŞƏ HAZIRLIĞININ İNKİŞAF ETDİRİLMƏSİ DİQQƏT MƏRKƏZİNDƏDİR

Daxili Qoşunların qarşısına qoyulan tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsi üçün xidməti heyvanlardan, xüsusilə xidməti itlərdən geniş istifadə olunur. Xidməti itlərin yetişdirilməsi, təlimi, müxtəlif tapşırıqların yerinə yetirilməsi üzrə istifadə olunması, sağlamlıqlarının qorunub saxlanılması, yemlənməsi və bəslənməsi haqqında geniş biliklər əldə etmək, bu sahədə qabaqcıl təcrübəyə yiyələnmək məqsədilə üç nəfər müddətdən artıq xidmət edən hərbi qulluqçumuz - 67987 saylı hərbi hissədən çavuş Araz Məmmədzadə, Daxili Qoşunların xidməti itlərin yetişdirilmə məntəqəsindən əsgər Nicat Hüseynov və 99713 saylı hərbi hissədən əsgər Cavid Budaqov cari il martın 9-dan iyulun 31-dək Türkiyə Respublikasında ezamiyyətdə olublar.

Hərbi qulluqçularımız Türkiyə Respublikasının Nevşehir şəhərində yerləşən Jandarm At və İt Təlim Mərkəzində "Partlayıcı maddələri aşkar edən xidməti itlərin hazırlanması" və "Xidməti itlərin təlimçilərinin hazırlığı" kurslarında iştirak ediblər.

Müvafiq komandanlığın peşəkar müəllim və təlimçi heyəti tərəfindən keçirilən təlimlərə Türkiyə, Suriya və Azərbaycandan 24 nəfər hərbi qulluqçu cəlb olunub.

İlk olaraq, kursa cəlb olunan hərbi qulluqçulara xidməti itlər haqqında ümumi məlumatlar verilib. Kurs müddətində xidməti itlərlə davranış qaydaları, onlara göstərilən ilkin tibbi yardım, həmçinin, xidməti itlərə qulluğun göstərilməsi, saxlanılması və istifadə qaydaları izah edilib. Eyni zamanda xidməti itlərlə ümumi, xüsusi təlimlərin nəzəri və praktiki olaraq keçirilməsi qaydaları öyrədilib. Bundan başqa, müxtəlif növ partlayıcı maddələrin yerinin müəyyənləşdirilməsi, xidməti itlərlə nəqliyyat vasitələri, əl çantaları, otaqlarda narkotik vasitələrin axtarışı, iz axtarışı, silahlı cinayətkarın axtarılması və tutulması, kütləvi iğtişaşların qarşısının alınması qaydaları diqqətə çatdırılıb. Post-patrul, qarovul xidmətinin təşkili və aparılması qaydaları üzrə praktiki məşğələlər də keçirilib.

İyulun 31-də Nevşehir Jandarm AT və İt Təlim Mərkəzinin komandiri polkovnik Ercan Altın tərəfindən kursu bitirən hərbi qulluqçulara sertifikatlar və döş nişanları təqdim edilib.

Hər üç hərbi qulluqçumuza xidmət etdikləri sahədə onlara göstərilən etimadı doğrultmağı və uğurlar arzulayırıq.

baş leytenant
Sadıq Rəfiyev

XÜSUSİ TƏYİNATLILAR QARŞIYA QOYULMUŞ TAPŞIRIQLARIN İCRASINA HƏR ZAMAN HAZIRDIR

17074 saylı hərbi hissənin yüksək döyüş hazırlığı və nümunəvi xidmətilə fərqlənən bölmələrindən biri də "Qartal" şərti adı verilmiş xüsusi təyinatlı bölməsidir. 2020-ci ilin 1-ci yarımilinin xidməti-döyüş fəaliyyətinin yekunlarına görə ən yüksək nəticə göstərərək, hərbi hissənin bölmələri arasında birinci yerə layiq görülməsi bunu bir daha sübut edir.

İlin bütün fəsillərində, müxtəlif iqlimə və relyefə məxsus ərazilərdə adına uyğun çevik fəaliyyət göstərmək qabiliyyətinə malik olan bölmənin təlim proqramları digər bölmələrin tədris proqramlarından fərqlənir. Hərbi qulluqçudan kifayət qədər fiziki güc və möhkəm iradəyə

rə birincilik qazanmasından danışan mayor Sahib İbrahimov şəxsi



dətində bölmənin şəxsi heyətinə əlbəyaxa döyüş fəndlərinin tətbiqi və xüsusi-taktiki hazırlıq üzrə müvafiq məşğələlər keçirilib. Məşğələlər zamanı xüsusi təyinatlı bölmələr

malik olmağı tələb edən məşğələlərə maraqla yanaşan xüsusi təyinatlılar, praktiki fəaliyyət zamanı yüksək peşəkarlıq göstərərək, qarşıya qoyulmuş tapşırıqların öhdəsindən layiqincə gəlirlər.

Rəhbərlik etdiyi bölmənin cari ilin birinci yarımilliyinin xidməti-döyüş fəaliyyətinin yekunlarına gö-

yekunlarına dair xidməti müşavirə keçirilib və aşkar olunmuş nöqsanların aradan qaldırılması üçün konkret tapşırıqlar və tövsiyələr verilib.

mayor Anar Əhmədov

heyətin təlimlərdə yiyələndiyi biliklərin və vərdişlərin rolunu xüsusi vurğuladı: "Tapşırıqların müvəffəqiyyətlə icra olunması şəxsi heyətin qazandığı bilik və vərdişlərdən çox asılıdır. Müvafiq tədris proqramlarına uyğun nəzəri və praktiki məşğələlərin keçirilməsi üçün hərbi hissəmizdə hər bir şərait mövcuddur. Əgər müsbət nəticə əldə etmək istəyiriksə, o zaman şəxsi heyəti bu istiqamətdə mükəmməl hazırlamalı, onların məşğələlərə olan marağının artırılmasını təmin etməliyik. Əldə olunan müsbət nəticələr, təbii ki, yüksək nailiyyətlərin qazanılmasına zəmin yaradır".

Avqustun 6-dan 8-dək Daxili Qoşunların Baş İdarəsinin Qərargahı tərəfindən müvafiq xidməti tapşırığa əsasən, hərbi hissənin xüsusi təyinatlı bölməsinin döyüş hazırlığı və döyüş təliminin vəziyyəti yoxlanılarkən əldə olunan nəticələr yuxarıda qeyd edilən fikirləri bir daha təsdiqləmiş oldu.

Bu barədə məlumat verən Daxili Qoşunların Baş İdarəsinin Qərargahında Əməliyyat və döyüş hazırlığı İdarəsinin döyüş hazırlığı şöbəsində baş zabit polkovnik-leytenant Tural Novruzov yoxlama müddətində əsasən komandir heyətinin idarəetmə və liderlik qabiliyyətinə, şəxsi heyətin atəş, fiziki və xüsusi taktiki hazırlıq səviyyəsinin dərindən öyrənilməsinə, fövqəladə hallar zamanı fəaliyyət planına uyğun olaraq xüsusi təyinatlı bölməyə həvalə olunmuş tapşırıqların yerinə yetirilməsi üzrə qrup, yarımqrup komandirlərinin, həmçinin, şəxsi heyətin bilik və bacarığına diqqət yetirildiyini bildirdi.

Eyni zamanda, xüsusi təlim atış çalışmalarının yerinə yetirilməsi ilə atıcılıq vərdişləri, eləcə də tirdə dartınma, maneələr zolağının dəf edilməsi və 100 metr məsafəyə qaçış üzrə çalışmaların yerinə yetirilməsi ilə fiziki hazırlığın vəziyyəti, taktiki hazırlıq, hərbi topoqrafiya, alpinizm, hərbi tibbi, texniki və mühəndis hazırlığından müvafiq normativlər üzrə qrupların şəxsi heyətinin praktiki bacarığı qiymətləndirilib.

Polkovnik-leytenant T.Novruzov onu da vurğuladı ki, yoxlama zamanı təlim məqsədilə xüsusi təyinatlı bölmənin müvafiq həyəcan siqnalı ilə hazırlığı, çevikliyi, silahlanması, təchizatı, avtomobil və zirehli texnikaların hərəkət qabiliyyəti, əməliyyat yerinə marşın icrası, komandir heyətinin çevik qərar qəbuletmə bacarığı yoxlanılıb. Müəyyən olunub ki, xüsusi təyinatlılar qarşıda duran tapşırıqların icrasına hazırdır, bölmənin komandir heyətinin iş üslubu, eləcə də idarəçilik fəaliyyəti qənaətbəxşdir, intizam və daxili qayda qorunub saxlanılır.

Bununla yanaşı, bölmənin silahlanmasında mövcud olan silah-sursat, müşahidə və optik cihazların vəziyyəti də yoxlanılarkən müəyyən olunub ki, silahlar sazdır, normal döyüş vəziyyətinə gətirilib, xüsusi nişangah və cihazlar təyinatına uyğun olaraq istifadə edilir, silahlara vaxtlı-vaxtında qulluq göstərilir.

Polkovnik-leytenant T.Novruzov hərbi hissənin xüsusi təyinatlılarından 7 nəfər hərbi qulluqçunun xüsusi hazırlıq kursu keçdiyini də söylədi. O əlavə etdi ki, yoxlama müddətində bölmənin şəxsi heyətinə əlbəyaxa döyüş fəndlərinin tətbiqi və xüsusi-taktiki hazırlıq üzrə müvafiq məşğələlər keçirilib. Məşğələlər zamanı xüsusi təyinatlı bölmələr üçün nəzərdə tutulmuş normativlərin yerinə yetirilməsi metodikaları da praktiki olaraq şəxsi heyətə izah edilib.

Sonda bölmənin zabit, gizir və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları ilə "Dövlətə və dövlətçiliyə sadiqlik, funksional vəzifə borclarının yerinə yetirilməsində hərbi qulluqçuların məsuliyyəti" mövzusunda söhbətlər aparılıb, komandir heyəti ilə yoxlamanın

3_Layout 1 28.08.2020 12:03 Page 1

KİÇİK KOMANDİR VƏ MÜTƏXƏSSİSLƏRİN HAZIRLANMASI YÜKSƏK SƏVİYYƏDƏ DAVAM ETDİRİLİR

Respublikamızın ərazi bütövlüyü uğrunda qızğın döyüşlərin getdiyi bir vaxtda yaradılan Daxili Qoşunların 25032 saylı hərbi hissəsi təqdirəlayiq yol keçib. Bu hərbi hissənin yerləşdiyi hərbi şəhərcik 1992-ci il mayın 31-də Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının istifadəsinə verilib. Bundan sonra 1992-ci ilin iyun ayının 12-dən etibarən hərbi hissə fəaliyyətə başlayıb. 1992-1994-cü illərdə hərbi hissənin şəxsi heyəti ərazi bütövlüyümüz uğrunda döyüşlərdə iştirak edib. 1999-cu ildə hərbi hissəyə tədris təyinatlı vəzifələr həvalə olunub.

Artıq 28 ildir ki, fəaliyyət göstərən hərbi hissə Daxili İşlər naziri və Daxili İşlər nazirinin müavini – Daxili Qoşunların komandanının diqqət və qayğısı sayəsində əsaslı şəkildə yenilənib, maddi-texniki təchizatı yaxşılaşıb.

Bu günlərdə sözügedən hərbi hissədə xidməti ezamiyyətdə olduğum zaman bunun bir daha şahidi oldum. 28 illik zəngin xidmət təcrübəsinə malik olan bu hərbi hissənin tarixinə, bugünkü həyatına nəzər salmaq bizim üçün həqiqi mənada maraqlı oldu.

Hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini VİE mayor Zamin Abbasovla söhbət zamanı məlum oldu ki, tədris təyinatlı hərbi hissədə kiçik komandirlər, sürücü və kiçik mütəxəssislər (rabitəçi və aşpazlar) hazırlanır, qoşunların hərbi hissələrinə göndərilirlər.

Kiçik komandirlər hazırlayan tədris bölüyü

Hərbi hissədə üzərinə düşən vəzifələri layiqincə yerinə yetirən bölmələrdən biri kiçik komandirlər hazırlayan tədris bölüyüdür. Bölük qarşıya qoyulan tapşırıqları uğurla həyata keçirir. Bölüyün əsas təyinatı hərbi qulluqçulara manqa komandirinin vəzifələrinin, tabelikdə olan əsgərlərlə təlimin, sıra hazırlığının və tərbiyə işinin aparılması qaydalarının öyrədilməsidir. Kiçik komandirlərin metodiki ustalığının, təşkilatçılıq və idarəetmə qabiliyyətinin artırılması da bölüyün funksional vəzifələrinə daxildir.

Kiçik komandirlər hazırlayan tədris bölüyünün komandiri-baş müəllim baş leytenant Xəqani Şirinzadənin tədris prosesində məşğələlərin keyfiyyətli şəkildə təşkili və keçirilməsində əməyi danılmazdır. Funksional vəzifələrinin icrasına məsuliyyətlə yanaşan komandir tabeliyində olan hərbi qulluqçulara qarşı tələbkarlığı və ciddiliyi ilə seçilir. Daim peşəkarlıq vərdişlərinin təkmilləşdirilməsi yönündə çalışır. Hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunan baş leytenant X.Şirinzadə düşünür ki, kiçik komandirlərin hazırlanmasında ən əsas məqam tədris proqramının mənimsənilməsidir. Belə ki, tədris müddəti ərzində məşğələlərdə fəal olan, daha çox öyrənməyə can atan və bütün biliklərini təcrübədə tətbiq etməyi bacaran hərbi qulluqçular yekun imtahanında lazımi nəticə göstərirlər.

Kiçik komandirlərin hazırlanması kursu müvafiq təhsil proqramının tələblərinə uyğun olaraq aparılır. Tədris proqramı bitdikdən sonra kursantlar təcrübə keçmək üçün Daxili Qoşunların 25031 saylı hərbi hissəsinə ezam olunurlar. Təcrübə müddətində onlar manqa komandiri kimi fəaliyyət göstərirlər. Təyin olunmuş müddət bitdikdən sonra bütün kursantlar hərbi hissəyə qayıdırlar və Daxili Qoşunların Baş İdarəsi tərəfindən təsdiq olunmuş imtahan komissiyası təcrübəçilərin əldə etdikləri bilikləri hansı dərəcədə mənimsədiklərini yoxlamaq məqsədilə imtahanlar qəbul edir. Təbii ki, sınaqları "əla" və "yaxşı" qiymətlərlə başa vuran kursantlar Daxili Qoşunlar komandanının müvafiq əmrinə əsasən, ilkin "kiçik çavuş" hərbi rütbəsi verilməklə aidiyyəti üzrə vəzifələrə təyin olunurlar.

Sürücü və kiçik mütəxəssislər hazırlayan tədris bölüyü

25032 saylı hərbi hissədə xidməti fəaliyyətini uğurla həyata keçirən bölüklərdən biri də sürücü və kiçik mütəxəssislər hazırlayan tədris bölüyüdür. Bölüyün qarşısında duran əsas tapşırıq qoşunların hərbi hissələrinə rabitəçi, aşpaz və sürücülər hazırlamaqdır.

Bölük komandiri vəzifəsini müvəqqəti icra edən leytenant Fərid İbadlı mütəmadi olaraq hər bir taqımın təyinatına uyğun məşğələlərə cəlb olunduğunu nəzərimizə çatdırdı. Qeyd etdi ki, tədris zamanı rabitəçi mütəxəssisləri hazırlayan taqımın şəxsi heyətinə qoşunların təchizatında olan rabitə və yüksək texnoloji vasitələrin, ultraqısa dalğalı, eyni zamanda, qısadalğalı radiostansiyaların taktiki-texniki xüsusiyyətləri izah edilir, işə salınması, istismarı, eləcə də radiomübadiləsinin aparılması qaydaları öyrədilir.

Rabitəçi mütəxəssislərin hazırlanması Daxili Qoşunlar komandanının müvafiq əmrinin tələblərinə əsasən təşkil edilir. Şəxsi heyətin ixtisas hazırlığı üzrə əsas təlim forması aparatlarda, fəaliyyətdə olan rabitə kanallarında praktiki məşğələlərdir. Nəzəri bilik ştat texnikasının iş prinsipinin dərk olunması həcmində verilir. Məşğələlər keçirilən zaman stansiyalardan, sabit rabitə qovşaqlarından və orada olan texnikadan və başqa maddi-təlim bazalarından istifadə olunur. Rabitə vasitələrində işləmək üçün təlim ilk dəfə sinifdə və fəaliyyətdə olan aparatlarda, sonralar isə səhra rabitə qovşaqlarında keçirilir.

Hər bir məşğələnin sonunda öyrədilən materialın mənimsənilməsi araşdırılır və qiymətləndirilir.

Aşpazlara yeməklərin bişirilməsi, səhra şəraitində hazırlanması, o cümlədən, gigiyena qaydalarına ciddi riayət olunması üsulları aşılanır.

Sürücü hazırlayan taqımın hərbi qulluqçuları tərəfindən bilik və bacarıqlarının planauyğun, mərhələli şəkildə mənimsənilməsi, avtomobil, həmçinin, digər texnikanın hər cür hava və ərazi şəraitində yol hərəkəti qaydalarına uyğun idarə edilməsi tədris olunur. Leytenant F.İbadlı ildə dörd tədris dönəminin olduğunu bildirərək, Daxili Qoşunlarda "B" və "C" kateqoriyalı sürücülərin hazırlanması üzrə tədris proqramının əhəmiyyətindən danışdı. Söylədi ki, sürücülərin hazırlanması üzrə təlimin təşkili və keçirilməsi zamanı hərbi qulluqçuların qarşısında bir neçə mühüm vəzifə dayanır. Bunlar avtomobilin çətin şəraitlərdə idarə edilməsi, avtomobil karvanının tərkibində hərəkət zamanı təhlükəsizlik qaydalarına ciddi riayət olunması, hərəkət sürətinin, eləcə də nəqliyyat vasitələri arasında ara məsafəsinin düzgün seçilməsi, verilən komandaların (siqnalların) tez və dəqiq yerinə yetirilməsidir. Müxtəlif şəraitlərdə xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı texnikanın bacarıqla idarə olunması da sadalananlara daxildir. Praktiki təlimlərdə avtomobil xidmətinin rəisi mayor Elman Əhmədovun rəhbərliyi ilə avtomobillərin idarə olunması vərdişləri təkmilləşdirilir. Tədris dövrünü, eləcə də imtahanları müsbət qiymətlə başa vuran və sürücülük vəsiqəsi alan hərbi qulluqçular qoşunların hərbi hissələrində sürücü vəzifələrinə təyin edilirlər.

Komendant bölüyü hərbi hissənin ən nümunəvi bölüyüdür

Hərbi hissənin döyüş xidməti dedikdə, ilk növbədə döyüş bayrağının, anbarların, hərbi şəhərciyin mühafizə və müdafiəsi ağlımıza gəlir. Bu baxımdan 25032 saylı hərbi hissənin komendant bölüyü hissənin etibarlı şəkildə qorunmasını həyata keçirir. Hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunan bölüyün şəxsi heyəti daim ayıq-sayıqlığı və əzmkarlığı ilə fərqlənir.

Bölük komandiri baş leytenant Sənan Baxışov söhbət zamanı qarşıya qoyulan mühüm tapşırıqların əhəmiyyətini, döyüş xidmətinə cəlb olunan hərbi qulluqçuların digərlərindən fərqləndiyini diqqətə çatdırdı. Bildirdi ki, məsuliyyətli, eyni zamanda, mühüm vəzifəni yerinə yetirmək üçün bölükdə xidmət edən hər bir hərbi qulluqçunun fiziki baxımdan sağlam, mənəvi-psixoloji durumunun qənaətbəxş və atəş hazırlığının yüksək səviyyədə olması vacib amillərdir. Bu gün xidmətə cəlb olunan şəxsi heyətdə sadalanan keyfiyyətlərin olduğunu deyən baş leytenant S.Baxışov hərbi qulluqçularla keçirilən məşğələlərin əhəmiyyətini önə çəkdi. Keçirilən nəzəri məşğələlərin şəxsi heyətin bilik və bacarıqlarının artırılmasına, hərbi savadlarının genişlənməsinə təkan verdiyini dedi. O, yüksək fiziki göstəriciyə, zəruri hərbi savada malik, eləcə də müsbət mənəvi cəhətləri olan əsgərin əzmkar döyüşçü olduğunu vurğuladı.

Qeyd edək ki, baş leytenant S.Baxışov 1985-ci il yanvarın 13-də Göygöl (o vaxtkı Xanlar rayonu) rayonunda dünyaya göz açıb. 2002-ci ildə Göygöl rayonundakı Emil Vəliyev adına 5 saylı tam orta məktəbi bitirib. 2003-2004-cü illərdə Sərhəd Qoşunlarının "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətdə olub. Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarına gəlişi 2009-cu ilə təsadüf edir. Belə ki, hələ yeniyetmə vaxtlarından hərbçi peşəsinə olan dərin rəğbəti onu öz gələcəyini hərbi qulluqçu kimi yaşamağa həvəsləndirib. Elə bu istəklə də Sənan 2009-cu ildə Daxili Qoşunların 17072 saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətə başlayıb.

Nümunəviliyi, intizamı ilə digərlərindən fərqlənən hərbi qulluqçu hərbi təhsil almaq üçün 2012-ci ildə Daxili Qoşunların Orta İxtisas Hərbi Məktəbinə (hazırda Ali Hərbi Məktəb – N.A.) qəbul olunub. 2014-cü ildə "leytenant" hərbi rütbəsi verilməklə 25032 saylı hərbi hissənin tədris bölüyündə tədris taqımının komandiri vəzifəsinə təyin edilib. 2018-ci ilə kimi müxtəlif vəzifələrdə

rinə düşən vəzifələrin icrası zamanı sayıqlıq, peşəkarlıq nümayiş etdirir. O, bölüyün döyüş hazırlığına, məşğələlərin təşkilinə və aparılmasına, maddi-tədris bazası obyektlərinin, tədris cihazlarının və avadanlıqlarının saz saxlanılmasına, kütləvi idman işlərinə, daxili qayda-qanuna və hərbi intizama riayət edilməsinə cavabdehlik daşıyır. Hərbi hissə komandanlığı tərəfindən verilən tapşırıqların icrasına son dərəcə ciddi və məsuliyyətlə yanaşır. Komendant bölüyündə xidmətin çətin, lakin şərəfli olduğunu və döyüş xidmətinə seçilən hərbi qulluqçuların hər birinin əzmkarlığını xüsusi vurğuladı. Zabit şərəfini hər şeydən üstün tutan komandir hər bir zabitin özlüyündə tabeliyində olan hərbi qulluqçulara örnək ola bilməsinin vacibliyini, tələbkar və qayğıkeş yanaşmanın önəmli olduğunu sözlərinə əlavə etdi: "Deyə bilərəm ki, bu gün bizə həvalə olunan tapşırıqların öhdəsindən layiqincə gəlmək üçün əlimizdən gələni edirik və obyektlərin mühafizə və müdafiəsi qətiyyətli əsgərlər tərəfindən etibarlı şəkildə təmin olunur".

Hərbi hissənin əsgər yeməkxanası yüksək standartlara cavab verir

Yüksək döyüş hazırlığını qoruyub saxlayan 25032 saylı hərbi hissənin komandanlığının xüsusi diqqət yetirdiyi sahələrdən biri də şəxsi heyətin keyfiyyətli və kalorili qidalanmasıdır. Hərbi hissə komandanlığının daima nəzarətində olan əsgər yeməkxanasında bişirilən xörəklərin keyfiyyəti, sözün əsl mənasında, müvafiq tələblərə tam cavab verir. Orada olarkən yeməkxanadakı səliqə-sahman və gigiyenik qaydaların gözlənilməsi diqqətimi cəlb etdi. Əsasən də bu gün pandemiya şəraitində olan ölkəmizdə, karantin qaydalarının tətbiq olunduğu bir vaxtda hərbi hissənin şəxsi heyətinin bu rejimə ciddi əməl etməsi təqdirəlayiq haldır. Belə ki, yeməkxanada görülən bir sıra vacib tədbirlərlə yanaşı, hərbi qulluqçular arasında sosial məsafənin saxlanılması, maskalardan və dezinfeksiyaedici məhlullardan istifadə edilməsi hərbi hissə komandanlığının sözügedən məsələyə ciddi nəzarətinin nəticəsidir. Ən əsası isə yeməkxanada quraşdırılan monitorda COVID-19 virusundan qorunmaq üçün maarifləndirici reklam çarxının şəxsi heyətə çatdırılması müsbət qiymətləndirilməlidir. Sözsüz ki, hərbi qulluqçuların belə təmiz şəraitdə qidalanmaları onlara göstərilən diqqət və qayğının təzahürüdür.

Bu sahədə görülən işlərdə böyük zəhməti olan hərbi hissənin ərzaq xidmətinin rəisi mayor Ceyhun Xəlilov şəxsi heyətin qida rasionundan danışarkən bildirdi ki, əsasən milli mətbəximizin ləziz xörəklərinə üstünlük verilir. O, şəxsi heyətin qidalanmasının Daxili İşlər nazirinin müvafiq əmrinin tələbləri əsasında təşkil olunduğunu söylədi. Bununla yanaşı, gündəlik olaraq vitamin, mövsümi salatlar və meyvə şirələri də qida rasionuna daxildir. Ərzaq normalarının düzgün bölünməsində, cədvəllərin tərtibatı işində ərzaq xidmətinin kargüzarı çavuş Leyla Salahovanın əməyini xüsusi vurğulayan mayor C.Xəlilov onun nümunəvi, işinə məsuliyyətlə yanaşan hərbi qulluqçu olduğunu bildirdi.

Onun sözlərinə görə, qidaların keyfiyyətli hazırlanması Daxili Qoşunlar komandanlığının qarşıya qoyduğu vacib tələblərdəndir. Bu məqsədlə, aidiyyəti kurs keçmiş əsgər aşpazlarla bərabər, qadın işçilərin əməyindən də istifadə olunur. Ərzaq xidmətinin rəisi onların öz vəzifələrinin öhdəsindən layiqincə gəldiklərini, qidaların tələb olunan keyfiyyətdə hazırlandığını nəzərə çatdırdı.

baş leytenant
Nigar Ağayeva

4_Layout 1 28.08.2020 12:11 Page 1

Şəhidlərimiz

MÜHARİBƏ SINAĞINA QEYRƏTLİ OĞUL KİMİ GETDİ, DÖYÜŞLƏRDƏ ŞÜCAƏT GÖSTƏRDİ...

Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüşlərdə həyatını qurban vermiş şəhidlərin sağ ikən ailələrinə yazdıqları məktublarda, eləcə də onlar ön cəbhəyə getmək üçün doğmaları ilə ayrılarkən çox təsirli və duyğusal ürək sözləri ifadə olunub. Həyatın çox çətin sınağı ilə üzüzə qalmış insanın söz yadigarı unudulmur, onun qəlb dünyasına işıq salır, əzizlərinə ağır məqamlarda yaşamağa mənəvi güc verir, hətta bəzi çalarları ilə yenilməz ruh aşılayır.

Xocalıda ermənilərin törətdikləri soyqırımdan sonra bir gün də olsa rahatlıq tapmayan, düşməndən qisas almağı düşünən, ön cəbhəyə can ataraq "dözə bilmirəm, mən getməliyəm" deyən, vaxtilə Bakının Qaradağ rayonunun Sahil qəsəbəsində yaşayan vətənpərvər bir gənc vardı - Mustafayev Natiq Sabir oğlu. O, Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının şəhid hərbi qulluqçularından biridir. Şəhid hərbi qulluqçularımızın siyahısında adı 155-ci sıra nömrəsi ilə qeydə alınıb.

N.Mustafayev 20 dekabr 1966-cı ildə Bakı şəhərində dünyaya göz açıb. Sabir Mustafayev və Salihə Mustafayevanın qurduğu ailədə iki qız, bir oğul övladı dünyaya gəlib. Beynəlmiləl tərkibli ailədə böyüyərək tərbiyə alan Natiq yaşıdlarından bir sıra şəxsi keyfiyyətlərinə görə fərqlənirdi. Cəsarətli, dərrakəli, təmkinli, yoldaşlıqda həssas, zəhmətkeş və idmana həvəsli olması ilə seçilib. Natiq valideynlərinə həmişə sevgi və ehtiramla yanaşıb. Gənc öz nəslinin keçmişi ilə də maraqlanıb, buna laqeyd qalmayıb. Onun babaları 1941-1945-ci illərdə Faşist Almaniyasına qarşı müharibədə iştirak ediblər. Ailədə bu fakt həmişə qürurla vurğulanıb.

Valideynlərinin uzun illəri əhatə edən fədakar əmək fəaliyyəti, cəmiyyətdə hörməti Natiqin həyata baxışlarına, dünyagörüşünə öz müsbət təsirini göstərib.

Sahil qəsəbəsindəki 228 saylı orta məktəbin məzunu olan Natiq sonra 59 saylı texniki-peşə məktəbində təhsil alaraq, qaynaqçı ixtisasına yiyələnib.

1985-ci ilin aprel ayında Qaradağ Rayon Hərbi Komissarlığı (hazırda Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qaradağ Rayon İdarəsi - Y.A.) tərəfindən müddətli həqiqi hərbi xidmətə çağırılıb. Vətəndən uzaqda - Rusiya Federasiyasının Xabarovsk diyarında, SSRİ Müdafiə Nazirliyinin 12908 və 52752 saylı hərbi hissələrində hərbi xidmət keçib. Sovet ordusu sıralarında "baş çavuş" hərbi rütbəsinə, habelə taqım komandirinin müavini vəzifəsinədək yüksəlib. Bundan əlavə, "Qvardiya" və "Sovet ordusu əlaçısı" döş nişanları ilə mükafatlandırılıb. 1987-ci ildə hərbi xidmətini başa vuraraq respublikamıza qayıdıb.

Hərbi xidmətdən sonra Natiq Qaradağ rayonundakı Dərin özüllər zavodunda əmək fəaliyyətinə başlayıb. Bir müddət də Bakı Baş Tikinti Trestinin 22 saylı Tikinti İdarəsində öz peşəsi üzrə işləyib. Çalışdığı əmək kollektivlərində peşə bacarığı və xeyirxah münasibətilə hörmət qazanıb. Ailənin sosial qayğılarının bir qismini öz üzərinə götürüb, valideynlərinə və bacılarına köməyini əsirgəməyib.

1990-cı il oktyabrın 19-da Natiqin toyu olub. Xalası qızı Zeynəb xanımla ailə qurub. Bu nikahdan bir qızı dünyaya gəlib, adını Səbinə qoyublar. Onun xoşbəxt ailə həyatı uzun sürməyib...

Həmin dövrdə Ermənistanın ərazi iddiaları nəticəsində başlanan Qarabağ münaqişəsi getdikcə şiddətlənirdi. Ermənistanda yaşayan bütün azərbaycanlılar öz yurdlarından qovulmuşdular. Dağlıq Qarabağda və Ermənistanla sərhəddə gərginlik səngimirdi. 1991-ci ildə SSRİ-nin süqutundan sonra isə münaqişə irimiqyaslı müharibə mərhələsinə keçmişdi. 1992-ci ilin birinci yarımilliyi müddətində ermənilər Dağlıq Qarabağda etnik təmizləmə apararaq, soydaşlarımızı soyqırım və terrora məruz qoymuşdular. Xocalı, Şuşa, Laçının süqutu və digər faciələr xalqımızı dərindən sarsıtmışdı.

Belə vəziyyətdə respublikamızın rayonlarında ön cəbhəyə göndərilmək üçün könüllülərdən ibarət dəstələr yaradılırdı. Qaradağ rayonunda da könüllülər taboru toplanmışdı. Natiq könüllü olaraq bu tabora yazılmaq üçün müraciət etmişdi. Timofey adlı yaxın dostu ondan xəbərsiz həmin taborun komandirinə Natiqin ailənin tək oğlu və bir uşağının olduğunu bildirmiş, üzv yazılmasını əngəlləməyə çalışmışdı. Bir neçə dəfə Natiqi geri qaytarsalar da, o, fikrindən dönməyib.

1992-ci ilin iyun ayında isə N.Musatafayev elan edilən səfərbərlik əsasında ehtiyatda olan hərbi qulluqçu kimi hərbi xidmətə çağırılıb. O vaxt müharibə vəziyyətində olan respublikamızın onun kimi hərbi xidmət təcrübəsinə malik gənclərə kəskin ehtiyacı vardı. Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının sıralarına qəbul olunub, qısa müddət sonra Natiq ön cəbhəyə göndərilib. Döyüş bölgəsindən ailəsinə baş çəkməyə gəldiyi son görüşdə doğmalarına ürək-dirək verib, atasına "anamdan muğayat ol" deyib, qayıdarkən hamı ilə halallaşıb.

Natiq 5477 saylı hərbi hissənin (indiki 17072 saylı hərbi hissə - Y.A.) tərkibində ərazi bütövlüyümüz uğrunda döyüşlərdə iştirak edib. Döyüş yolu Ağdam-Ağdərə bölgəsinin bir sıra yaşayış məntəqələri və yüksəkliklərindən keçib. Ağdamın Papravənd və Qalayçılar kəndlərinin müdafiəsi, Ağdərə rayon mərkəzi və ətraf kəndlərin, eləcə də "Qlobus" adlanan yüksəkliyin işğaldan azad olunması uğrunda qətiyyətlə vuruşub. Onlarla düşmən hərbçisini məhv edib. Ermənilərin iriçaplı silahlar yerləşdirdikləri ayrı-ayrı atəş nöqtələrinin susdurulmasında cəsurluq göstərib.

Natiqin son döyüşü 14.08.1992-ci ildə Ağdərənin Möhrətaq kəndində (hazırda Tərtər rayonunun Kiçik Qarabəy kəndi, işğal altındadır - Y.A.) olub. Qeyd olunan döyüşdə o, ölümcül yaralanaraq şəhidlik zirvəsinə ucalıb.

Həmin il Daxili Qoşunlar komandanının imzası ilə Mustafayevlər ailəsinə göndərilən məktubdan sitat: "Siz oğlunuz Natiqin Vətən yolunda qəhrəmanlığı ilə öyünə bilərsiniz. O, ölümü ilə böyüdü, əbədiləşdi".

1992-ci ilin sentyabr ayının 29-da tərtib olunmuş ölüm haqqında şəhadətnamədə hərbi qulluqçumuzun 14.08.1992-ci ildə döş və qarın boşluğu üzvlərinin güllə yaralarından öldüyü yazılılb.

Daxili Qoşunların Arxivindən verilən 03.08.2020-ci il tarixli arayışda Natiqin 5477 saylı hərbi hissənin hərbi qulluqçusu kimi 14.08.1992-ci ildə Ağdərə rayonunda şəhid olduğu qeyd edilib.

2000-ci ildə "Çaşıoğlu" mətbəəsində işıq üzü görmüş, Nuriyyə Ağayevanın müəllifi olduğu "Qaradağ şəhidləri" kitabında dərc edilən məqalədə isə Natiqin Möhrətaq kəndi uğrunda döyüşdə bir nəfər yaralı yoldaşını xilas etmək istəyərkən mühasirəyə düşdüyü, son güllələdək atışdığı və düşmənin əlinə keçməmək üçün qumbara ilə özünü partlatdığı barədə məlumat verilib.

Bir nəfər döyüşçünün ailəyə baş çəkərkən verdiyi xəbərə görə, Natiqin meyiti son döyüş nəticəsində düşmənin nəzarətində olan ərazidə qalıb. Lakin sonra bizim qüvvələr o istiqamətdə irəliləyərək meyitləri çıxarıblar.

Hərbi qulluqçumuz Bakıdakı Şəhidlər xiyabanında dəfn olunub. Sahil qəsəbəsində onun adına küçə var. Mustafayevlər ailəsinin yaşadığı binaya şəhidin barelyefi vurulub. Qəsəbənin mərkəzində şəhidlərin xatirəsinə ucaldılan abidə kompleksində N.Mustafayevin də şəkli həkk olunub.

Şəhidin atası S.Mustafayev və həyat yoldaşı Zeynəb xanımın, sabiq döyüşçü Elman Qurbanovun onunla bağlı xatirələrini dinlədim. Söhbət açılan maraqlı məqamlar məqalənin yazılması baxımından çox dəyərli oldu. Buna görə onlara minnətdarlığımı bildirirəm.

Şəhidin qızı Səbinə ixtisasca həkimdir, hazırda Almaniyada yaşayır. Ailəlidir, bir qızı var. O, atasını itirəndə körpə uşaq idi, taleyinə bu acı ilə böyümək, atasızlığın kədərini yaşamaq yazılıb. Ancaq bütün çətinliklərə baxmayaraq, layiqli və həyatda uğur qazanmağa qadir övlad kimi yetişdirilib.

Vətən yaşadıqca, onun köksündə hər bir şəhidin izi qalacaq, günəşin şölələri altında üçrəngli bayrağımız zirvədə dalğalandıqca, ruhları sevinəcək.

Allah rəhmət eləsin!

Yalçın Abbasov

ƏZMKARLIQ VƏ PEŞƏKARLIQ UĞURLU NƏTİCƏNİN ƏSASIDIR

Hərbi hissələrin döyüş hazırlığının qorunub saxlanılması və qarşıya qoyulan tapşırıqların uğurla yerinə yetirilməsi baxımından istifadədə olan avtomobillər vacib vasitədir. Şəxsi heyətin, habelə yüklərin daşınması sürücülərin üzərinə düşür. Onların peşəkarlığı mühüm amildir.

12318 saylı hərbi hissənin avtomobil və zirehli texnika xidmətinin rəisi mayor Elçin Orucov bu sahədə üzərinə düşən vəzifələri müvəffəqiyyətlə yerinə yetirən hərbi qulluqçulardan biri kimi baş çavuş Siyavuş Cəfərovun adını çəkdi.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu baş çavuş S.Cəfərov 1987-ci il avqustun 27-də Xocavənd rayonunun Kuropatkin kəndində anadan olub. 2005-ci ildə Ağcabədi rayonunda yerləşən, Xocavənd rayonu Muğanlı kənd 1 saylı tam orta məktəbini bitirib. 2005-2007-ci illərdə Dövlət Sərhəd Xidmətinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. 2012-ci ilin avqust ayından Daxili Qoşunların 12318 saylı hərbi hissəsində xidmət edir. 2012-2020-ci illərdə xüsusi vasitələrin tətbiqi bölməsində atıcı, yarımqrup komandiri, qrup komandirinin müavini vəzifələrinə təyin olunub. Baş çavuş S.Cəfərov hazırda hərbi hissənin post-patrul xidməti bölməsində sürücü-atıcı vəzifəsindədir. Xidməti vəzifələrini vicdanla, nizamnamələrin tələblərinə uyğun icra edən hərbi qulluqçumuz şəxsi heyətin hörmətini qazanıb, müsbət cəhətdən xarakterizə olunur.

Verilən tapşırıqları vaxtında və düzgün icra etdiyinə, funksional vəzifələrinə məsuliyyətlə yanaşdığına görə dəfələrlə bölmə və hərbi hissə komandanlığı tərəfindən mükafatlandırılıb.

Fiziki və atəş hazırlığı baxımından da nəticələri qənaətbəxş olan hərbi qulluqçumuz ümumi inspeksiya yoxlamasından "yaxşı" qiymət alıb.

Xüsusi vasitələrin tətbiqi bölməsinin komandiri mayor Rəşad İsmayılov qeyd etdi ki, baş çavuş S.Cəfərov ona təhkim olunmuş nəqliyyat vasitəsinin sazlığını hər gün yoxlayır, xırda nasazlıqlar aşkar olunduqda dərhal aradan qaldırılması üçün tədbirlər görür. O, texnikanın xüsusiyyətlərinə yaxşı bələddir, təhlükəsizlik və yol hərəkəti qaydalarını bilir, onlara tam olaraq riayət edir.

Mayor E.Orucov bildirdi ki, sürücülərin nəqliyyat vasitələrini müxtəlif hava və yol şəraitlərində idarəetmə bacarığı olmalıdır. Onlar yolda yaranan vəziyyəti ani olaraq qiymətləndirməli, hərəkətin təhlükəsizliyini təmin etməlidirlər. Bu mövzuda şəxsi heyətlə müntəzəm olaraq məşğələlər keçirilir. Baş çavuş S.Cəfərov məşğələlər zamanı fəallıq göstərir, yiyələndiyi bilikləri hərbi xidmətə yeni qəbul olunmuş yoldaşlarına da öyrətməyə çalışır.

Sıralarımızda baş çavuş S.Cəfərov kimi hərbi qulluqçunun olması qürurvericidir.

baş leytenant
Sadıq Rəfiyev

Həkim məsləhəti

TƏZYİQİ DƏRMANSIZ AZALTMAĞA KÖMƏK EDƏN BİR NEÇƏ YOXLANMIŞ ÜSUL

Yüksək qan təzyiqi infarkt və insult, həmçinin, anevrizmlər, koqnitiv funksiyaların azalması, böyrək çatışmazlığı üçün risk amillərindən biridir. Bununla birlikdə, hipertoniyanı müalicə etmək üçün istifadə olunan dərmanlar, ayaq qıcolmaları, baş gicəllənməsi və yuxusuzluq kimi fəsadlar yarada bilər. Ekspertlər dərman qəbul etmədən qan təzyiqini azaltmağa kömək edən bir neçə yoxlanmış metodun adını açıqlayıblar. **AZƏRTAC** xəbər verir ki, bu barədə məlumat "MedikForum" saytında yer alıb.

Piyada gəzinti. Təxminən 400 tədqiqatdan əldə olunan göstəricilərə əsasən, müntəzəm fiziki məşqlər, o cümlədən, gəzinti (kifayət qədər sürətlə) qan təzyiqini azaltmaq üçün geniş istifadə olunan QT (qan təzyiqi) preparatları kimi effektli nəticələr verir. Həftənin əksər günlərində azı 30 dəqiqə gəzmək xüsusilə faydalı sayılır.

Dərindən nəfəs almaq. Həkimlər gündə iki dəfə bir neçə dəqiqə (ən azı beş dəqiqə) yavaş nəfəs verməyi və nəfəs çəkməyi məsləhət görürlər. Bütün bunlar bədəndə qan təzyiqini, ürək döyüntüsünü artırmaqla qan damarlarını daraldan stres hormonlarını nəzarətdə saxlamaq üçün mühüm rol oynayır.

Natrium qəbulunu azaltmaq. Mineralın sidik vasitəsilə böyrəklərdən daha çox natrium ifraz etməyə səbəb olması qan təzyiqini dərmansız azaltmağa kömək edir. Amerika Kardiologiya Assosiasiyası qan təzyiqini aşağı salmaq üçün natriumun qəbulunu gündə 1500 mq-dən aşağı səviyyədə saxlamağı tövsiyə edir.

Tünd şokolad. Daha bir yoxlanılmış üsul. Cənubi Kaliforniya Universitetinin alimləri qeyd edirlər ki, tünd şokoladın orta hesabla müntəzəm olaraq qəbulu sistolik arterial (yuxarı) təzyiqi 5 bal, diastolik (aşağı) təzyiqi isə demək olar ki, 3 bal azaltmağa kömək edə bilər. Belə effektli nəticənin əldə olunması onun flavanol komponentlərinin qan damarlarını rahatlaşdırması ilə izah olunur.

Bir stəkan süd. Alimlər iddia edirlər ki, bəzi hallarda yüksək qan təzyiqinə qidada saflaşdırılmış karbohidratlardan çox istifadə olunması nəticəsində yaranan iltihab səbəb olur. Bu sürətli karbohidratların bəzilərinin qismən süd proteini ilə əvəz edilməsi hipertoniya və hipertoniya öncəsi ərəfədə sistolik qan təzyiqini aşağı sala bilər.

HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-

Türkiyə ordusuna "Vuran" taktiki zirehli vasitələri tədarük edilib

Türkiyənin BMC şirkəti tərəfindən hazırlanan "Vuran" taktiki təkərli zirehli vasitələri Türkiyə Quru Qoşunları Komandanlığına təhvil verilib. "Ordu.az" xəbər verir ki, bu barədə Türkiyə Prezident Administrasiyasının Müdafiə Sənayesi İdarəsi məlumat verib.

Məlumata görə, şirkət ölkənin Jandarma Qüvvələrinə və Quru Qoşunları komandanlığına ümumilikdə, 1000-dən artıq bu nəqliyyat vasitəsini tədarük edəcək.

"Rostex" yarımavtomatik "Poloz" tapançasını təqdim edib

Rusiyanın "Rostex" Dövlət Korporasiyasının Dəqiq Maşınqayırma Mərkəzi Elmi-Tədqiqat İnstitutu (SNİİTOÇMAŞ) tərəfindən "Poloz" adlı tapança hazırlanıb. Bu barədə "Azeri Defence" saytına "Rostex" Dövlət Korporasiyasının mətbuat xidmətindən məlumat verilib.

Tapança Rusiya Daxili İşlər Nazirliyinin və Rusiya Qvardiyasının əməkdaşları tərəfindən operativ və gizli daşınması üçün xüsusi hazırlanıb.

Allah rəhmət eləsin

Daxili Qoşunların Veteranlar şurası **ehtiyatda olan polkovnik Nazim Səfərovun** vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.

16076 saylı hərbi hissənin şəxsi heyəti baş leytenant Fərhad Səfərova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Nümunəvi göstərici hərbi orkestrin şəxsi heyəti baş çavuş Emil Bayramova **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000